Ədəbiyyat qəzeti

9 yanvar / 2021

Afaq ŞIXLI

## Bizə düşdü

Belə yazıldı yazımız:
Bol bəhrəli bağlarımız,
Başı qarlı dağlarımız
Gözə düşdü, gözə düşdü!

Çox gözlədik bir sonu var,
Ümid açdıq bahar-bahar,
Sonu gəlməz ayrılıqlar,
Üzə düşdü, üzə düşdü.

İsrafilim çaldı suru,
Gözümüzün döndü nuru!
Düşmənlərin ən mənfuru
Bizə düşdü, bizə düşdü.

Qaçmadıq ər savaşından...
Əsgər olduq gənc yaşından.
Sürüklədik, dağ başından,
Düzə düşdü, düzə düşdü.

Çəkiləndə Ər nərəsi,
Namərdlərin batdı səsi.
Savaşların müqəddəsi
Güzə düşdü, güzə düşdü!

## Vətən

Demək ki, mən səni belə sevirəm -
Başına döndüyüm, öz anam kimi.
Dönərəm yolunda külə, sevirəm!
Başqa güc varmı ki, bu inam kimi?!

Duaçın olmağa əlim uzanı,
O - göydəki Tanrım, sən də yerdəki!
Torpaq sevgisindən böyük eşq hanı?
Yuxusuz qalmışam əsgərin təki...

Ey Vətən! Səninçün tökülür qanlar!
Bu xalq nə zamandır ölüb-dirilir!
Başının tükünə qıyılmayanlar,
Tək sənin yolunda qurban verilir.

Ağrı-acıların düşmənə getsin!
Yox, bu acılar da doğmadır bizə!
Bütün ayrılıqlar payızla bitsin,
Zəfərin su səpsin ürəyimizə!

Sağalsın yarası küskün yerlərin,
Başımız ucalsın, göyə tən olsun!
Gülmürdü könlümüz nə vaxtdan bəri,
Qoy bizi ağladan Qələbən olsun!